Pedaqoji Universitet

# 100 İL 100 FAKT



*"Azərbaycan Dövlət Pedaqoji İnstitutu böyük və çətin yol keçmişdir. Onun kollektivi Azərbaycan ümumtəhsil məktəbinin inkişafında böyük xidmət göstərmiş, institut xalq maarifi üçün yüksəkixtisaslı kadrlar ocağına çevrilmişdir. Özünü müəllimliyə həsr etmiş insan ən şərəfli insandır. İndiyə qədər yaranmış təməlin üzərində dayanan Azərbaycan təhsili bundan sonra daha da təkmilləşəcəkdir. Azərbaycan müəllimləri ən yüksək mənəviyyata, vətəndaşlıq hislərinə malik olan insanlardır".*

**Heydər Əliyev**

**Azərbaycan xalqının ümummilli lideri**



*"İxtisaslaşmış ali təhsil müəssisəsi kimi Azərbaycan Dövlət Pedaqoji Universiteti müəllim hazırlığı sahəsində və pedaqoji təhsilin inkişafı naminə bu gün də uğurlu fəaliyyəti ilə müstəqil Azərbaycanın inkişafına töhfələrini əsirgəmir. Universitetdə qabaqcıl elmi nailiyyətlərdən, innovativ təlim-tədris texnologiyalarından faydalanmaqla ali təhsilin məzmun və keyfiyyət göstəricilərinin təkmilləşdirilməsi istiqamətində zəruri addımlar atılır".*

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

**Layihə rəhbəri:**

ADPU-nun rektoru, tarix elmləri doktoru, professor Cəfər CƏFƏROV

**İdeya müəllifləri:**

Filologiya elmləri doktoru, professor Fikrət RZAYEV,
Cavid HÜSEYNOV

**Layihənin icraçısı:**

ADPU-nun Tələbələrlə iş və ictimaiyyətlə əlaqələr şöbəsi

**Elmi redaktor:**

Filologiya elmləri doktoru, professor Fikrət RZAYEV

**Tərtibçi:**

Asim İBRAHİMOV

**İbrahimov A.N. "Azərbaycan Dövlət Pedaqoji Universiteti. 100 il100 fakt". Bakı, ADPU, 2021, 108 səh.**

Azərbaycan Dövlət Pedaqoji Universiteti 100 illik tarixi boyu olduqca zəngin və bir-birindən maraqlı elmi-pedaqoji, ictimai-siyasi hadisələrə şahidlik etmiş, ali təhsil müəssisəsi fəaliyyəti dövründə bir çox uğurlara imza atmış, eyni zamanda mürəkkəb tarixi inkişaf yolu keçmişdir. Universitet bu gün də ölkədə pedaqoji kadr hazırlığının bayraqdarı kimi öz missiyasını uğurla davam etdirir.

ADPU-nun 100 illik yubileyinə həsr olunan bu kitabda Universitetin bir əsrlik zəngin tarixi ən maraqlı 100 fakt işığında qısaca göz önündə canlanır. Faktlar bilavasitə əlaqədar olduğu fotolar və illustrativ tərtibatla təqdim olunur.

ISBN 978-9952-842-78-4

9789952842784

© İbrahimov A.N. – 2021

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin**
**100 illik yubileyinin qeyd edilməsi haqqında**
**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

2021-ci ildə respublikamızın ilk ali pedaqoji təhsil ocağının – Azərbaycan Dövlət Pedaqoji Universitetinin fəaliyyətə başlamasının 100 illiyi tamam olur.

Azərbaycan Dövlət Pedaqoji Universiteti ölkəmizin təhsil tarixində xüsusi yer tutan, zəngin ənənələrə malik ali təhsil müəssisələrindəndir. Yarandığı vaxtdan etibarən Universitet üzərinə düşən vəzifələri həmişə layiqincə yerinə yetirmiş, respublikamızla yanaşı, bir sıra digər ölkələr üçün elmi-pedaqoji kadr hazırlanması işini müvəffəqiyyətlə həyata keçirmişdir. Azərbaycanın tanınmış ictimai, elm və mədəniyyət xadimləri arasında Universitetin çox sayda məzunları vardır. İxtisaslaşmış ali təhsil müəssisəsi kimi Azərbaycan Dövlət Pedaqoji Universiteti müəllim hazırlığı sahəsində və pedaqoji təhsilin inkişafı naminə bu gün də uğurlu fəaliyyəti ilə müstəqil Azərbaycanın inkişafına töhfələrini əsirgəmir. Universitetdə qabaqcıl elmi nailiyyətlərdən, innovativ təlim-tədris texnologiyalarından faydalanmaqla ali təhsilin məzmun və keyfiyyət göstəricilərinin təkmilləşdirilməsi istiqamətində zəruri addımlar atılır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə yüksək ixtisaslı pedaqoji və elmi-pedaqoji kadr yetişdirilməsi sahəsində mühüm xidmətlərini nəzərə alaraq, Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illik yubileyinin qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Təhsil Nazirliyi Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 17 aprel 2021-ci il**

*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*100 illiyinə həsr olunur...*

Azərbaycan Dövlət Pedaqoji Universiteti 100 illiyinə ***"Ənənələrə sadiq, yeniliklərə açıq universitet!"*** şüarı ilə daxil olmaqla özünün inkişafa açıq və tədqiqatyönümlü universitet olma hədəfini bəyan edir.



100 İL FAKT

100 İL 100 FAKT



Azərbaycan Dövlət Pedaqoji Universitetinin (o zamankı adı "Ali Pedaqoji Kişi İnstitutu") ilk nizamnaməsi 1921-ci ilin 13 iyun tarixində təsdiq edilib.



ДЕКРЕТ

Об учреждении в г. Баку 1-го азербайджанского мужского государственного педагогического института.

№ 66.

В целях обеспечения Республики высоко-квалифицированными работниками просвещения, могущими провести в жизнь идеи единой трудовой школы, Совет Народных Комиссаров А. С. С. Р. постановляет:

Учредить в гор. Баку с 1-го сентября с. г. первый азербайджанский государственный мужской институт специально по подготовке преподавателей на государственном (тюркском) языке для школы 2-ой ступени. К организации института приступить немедленно по издании настоящего декрета.

Председатель Совнаркома *Н. Нариманов.*
Нарком Просвещения *Д. Буниат-Заде.*
Управделами Совнаркома *Ширвани.*
Секретарь С. Н. К. Р. *Таиров.*

"Birinci Azərbaycan Dövlət Pedaqoji Kişi İnstitutunun təşkili haqqında" dekret 1921-ci ilin 26 avqust tarixində Azərbaycan Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanov tərəfindən imzalanıb.

Yuxarıda təqdim olunan tarixi sənəd dekretin imzalandığı gün "Kommunist" qəzetində dərc olunmuş rəsmi variantıdır.



Ali Pedaqoji Kişi İnstitutu Şurasının ilk iclası 1921-ci ilin 12 noyabr tarixində keçirilmişdir.



İnstitutda dərslər 1921-ci ilin 15 noyabr tarixində başlanmışdır.

**100 İL**
**FAKT**




Ali Pedaqoji Kişi İnstitutunun ilk direktoru Fətulla bəy Rzabəyli (1921-1924) olmuşdur. Ümumilikdə universitetə indiyədək 31 rektor (direktor) rəhbərlik edib.



Ali Pedaqoji Kişi İnstitutunun ilk müəllimləri Fətulla bəy Rzabəyli, Həbib bəy Mahmudbəyov, Abdulla Şaiq Talıbzadə, Məhəmməd Əfəndiyev, Həmid Şaxtaxtinski, Sadiq Hüseynov, İsmail Novruzi və V.V.Pismennaya olmuşdur.



Ali Pedaqoji Kişi İnstitutu 1921-ci ildə cəmi 6 tələbə (Əbdülhəsən Rəhimzadə, Atababa Musaxanlı, Vəli Axundzadə, Mahmud Süleymanzadə, Veyis Mustafazadə və Əbdülmənsurlu Əlizadə) ilə fəaliyyətə başlayıb.



Abdulla Şaiqin təşəbbüsü ilə yaradılan ilk anadilli məşhur "Nümunə məktəbi" İnstitutun nəzdində fəaliyyət göstərib. Məktəbin direktoru Qafur Əfəndizadə (Qantəmir) olub.




Ali Pedaqoji Kişi İnstitutunun ilk himninin sözləri Abdulla Şaiqə, musiqisi Üzeyir Hacıbəyliyə məxsusdur.

Abdulla Şaiq “Gənclik marşı” adlanan bu şeirini 1921-ci ildə yazıb və Ali Pedaqoji İnstitutun tələbələrinə həsr edib.



Ali Pedaqoji Kişi İnstitutunun ilk tədris binası Bakı şəhərinin Lebedenski döngəsində (indiki Niyazi və Şövkət Ələkbərova küçələrinin kəsişməsi) yerləşən 1№-li Turgenev məktəbinin binası olmuşdur. Hazırda həmin binanın yerində Bakı şəhəri 6 nömrəli məktəb-lisey yerləşir.



İnstitut fəaliyyətə başlayarkən tədris müddəti 3 il olub.



Ali Pedaqoji Kişi İnstitutu fəaliyyətə başlamazdan əvvəl Bakı şəhərində birillik pedaqoji kurs mövcud idi. Kursa institutun ilk direktoru olan Fətulla bəy Rzabəyli rəhbərlik edib. Həmin kurs ADPU-nun yaradılması üçün baza hesab edilir.

# 100 İL 100 FAKT



Azərbaycan Dövlət Pedaqoji Universiteti ölkəmizin ilk anadilli ali təhsil müəssisəsidir.




**Ali Pedaqoji İnstitutun ilk möhürü  (1921)**

Ali Pedaqoji İnstitutun (hazırkı ADPU) 1921-ci ilə aid olan ilk möhürünün orijinal təsviri universitetin redaktoru Taleh Mirzəyev tərəfindən 1926-cı ildə Azərbaycan Dövlət Ali Pedaqoji İnstitutunun Şuşa sakini Bəhmən Qərim oğlu Məhəmmədzadəyə verdiyi Şəhadətnamənin üzərindən aşkarlanaraq götürülüb və universitetin mütəxəssisi Elvin Vahidov tərəfindən restavrasiya olunub. *(Şəhadətnamənin surəti M. Mərdanovun "Azərbaycan təhsil tarixi". II cild ("Təhsil" nəşriyyatı, B-2011, 702 s.) kitabının 442-ci səhifəsi ndən götürülüb. Tanınmış təhsil tədqiqatçısı prof. F.Rüstəmov qeyd edir ki, bu möhür 1921-ci ildən istifadə olunub. Alim bildirir ki, akademik M.Mehdizadə və məhşur fizik A.Abbaszadənin tələbə yoldaşı olmuş B.Q.Məhəmmədzadə (1896-1937) repressiya qurbanı olub. O, prof. Hümeyir Əhmədovun ana babasıdır).*

Möhürün kənar dairəsində əski əlifba ilə azərbaycanca *"Xalq Maarif Qomissarlığı. Azərbaycan Birinci Ali Darülfünunu"* (şərqşünas alim Səadət Şıxıyeva tərəfindən oxunub), ikinci dairəsində rusca *"Azərbaycan Pedaqoji İnstitutu"* yazıları qeyd olunub. Möhürün mərkəzində o zamankı adı ilə Azərbaycan İctimai Şura Cümhuriyyətinin (Azərbaycan SSR) rəmzi olan aypara içində beşguşəli ulduz təsviri var. Ulduzun üzərində oraq və çəkic rəsmi yerləşdirilib. Beşguşəli ulduzun tam yuxarısında ölkənin adının abreviaturası olan "A.İ.З.C" inisialları yer alır. Aypara-ulduz embleminin yuxarı kənarında latın qrafikalı azərbaycanca, aşağı kənarında isə rusca ilə *"Bütün ölqələrin proletarı birləşin!"* şüarı yazılıb.



1921-ci ilin mart ayının 1-də Bakı şəhərində Birinci Məktəbəqədər Qadın Tərbiyə İnstitutunun açılması ilə bağlı dekret qəbul edilib. Azərbaycan Xalq Komissarları Sovetinin 29 noyabr 1922-ci il tarixli dekretində isə deyilirdi: "Bakı şəhərində mövcud olan Məktəbəqədər Tərbiyə İnstitutu türk dilində II dərəcəli məktəblər üçün qadın müəllimləri hazırlayan Ali Qadın Pedaqoji İnstitutuna çevrilsin." Bu institut daha sonra Ali Pedaqoji Kişi İnstitutuna birləşdirildi.



Azərbaycan Xalq Komissarları Sovetinin 29 noyabr 1922-ci il tarixli dekreti əsasında yaradılan Ali Qadın Pedaqoji İnstitutunun ilk və son direktoru Sara xanım Xuramoviç olmuşdur.




1922-1923-cü tədris ilində Ali Pedaqoji Kişi İnstitutu keçmiş realnı məktəbin binasına ( indiki İqtisad Universitetinin əsas tədris binası) köçürülüb. İnstitut 1927-ci ilə kimi həmin binada fəaliyyət göstərib. Bu binanın əsası 1901-ci ildə qoyulub.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin ilk tələbə təşkilatı olan Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) əsası 1923-cü ildə qoyulmuşdur.

100 İL 100 FAKT



1923-1924-cü tədris ilində Ali Qadın Pedaqoji İnstitutunun buraxılışında Azərbaycan təhsil tarixində ilk dəfə 17 nəfər ali təhsilli müəllim qadın institutu bitirib.



1923-1924-cü tədris ilində Ali Pedaqoji Kişi İnstitutu-nun 28 nəfər məzunla ilk buraxılışı olub.

100 İL 100 FAKT



Ali təhsil müəssisəsinin ilk muzeyi olan "Tarix və etnoqrafiya" muzeyi 1923-1924-cü tədris ilində yaradılıb.



1924-1925-ci tədris ilindən Ali Pedaqoji Kişi İnstitutu və Ali Pedaqoji Qadın İnstitutu "Ali Pedaqoji İnstitut" adı ilə birləşdirilib.

100 İL 100 FAKT



Ali Pedaqoji İnstitut 1927-ci ildə Azərbaycan Dövlət Universitetinin Pedaqoji fakültəsinə birləşdirilmiş, 1930-cu ildə yenidən müstəqil institut kimi fəaliyyətini bərpa etmişdir.



Hal-hazırda əsas tədris binasının yerləşdiyi binanın tarixi hissəsi 1913-cü ildə Kommersiya məktəbinin binası kimi tikilib və istifadəyə verilib. Bina 1919-cu ildə Bakı Dövlət Darülfününa verilib. 1930-cu ildə isə Azərbaycan Dövlət Universiteti ləğv edildiyinə görə Pedaqoji İnstitutun əsas binasına çevrilib.

100 İL 100 FAKT

100 İL 100 FAKT




Beynəlxalq standartlara uyğun fəaliyyət göstərən "Pedaqoji Universitetin Xəbərləri" dövri-elmi jurnalı 1935-ci ildən nəşr olunur.



Fətulla Bəy Rzabəyli



Pənah Qasımov



Məmməd Bayramov



Mirzə Davud Rəsulzadə



Hüseyn Musayev

İnstitutun direktorlarından 5 nəfəri; Fətulla bəy Rzabəyli, Pənah Qasımov, Məmməd Bayramov, Mirzə Davud Rəsulzadə və Hüseyn Musayev repressiya qurbanı olublar.

100 İL 100 FAKT



1938-1939-cu tədris ilində institut tarixində ilk dəfə olaraq tələbə qəbulunda müsabiqə üsulundan istifadə olunub.




Böyük Vətən müharibəsi illərində institutun maliyyə imkanları tükəndiyindən Azərbaycan Xalq Komissarları Soveti və Azərbaycan KP MK 19 sentyabr 1941-ci ildə "V.İ.Lenin adına ADPİ-nin S.M.Kirov adına ADU ilə birləşdirilməsi haqqında" qərar qəbul etmək məcburiyyətində qalmışdır.

100 İL FAKT



Cəbrayıl Ələsgərov



Mehdi Əliyev



Mehdi Mehdizadə

Universitetin rektorlarından üçü (mayor Cəbrayıl Ələsgərov, Mehdi Əliyev və Mehdi Mehdizadə) bilavasitə İkinci Dünya Müharibəsində döyüşlərdə iştirak edərək qəhrəmanlıq göstərmiş, müxtəlif orden və medallarla təltif olunmuşlar.



İnstitut kollektivi II Dünya müharibəsi zamanı orduya 50000 manatlıq istiqraz və 45000 manat nağd pul yardımı edib.



Müharibənin gedişində əsaslı dönüş yarandıqdan sonra - 1943-cü ildə ADPİ yenidən institut kimi öz fəaliyyətini bərpa etdi. Həmin il Pedaqoji İnstitut indiki Səadət sarayında fəaliyyətinə davam etmişdir.



II Dünya müharibəsində SSRİ-nin qələbə qazanmasının əsas səbəblərindən biri də "yüksək oktanlı benzin"in kəşfi idi. Bu benzini kəşf edən alim Azərbaycan Dövlət Pedaqoji İnstitutunun məzunu, akademik Yusif Məmmədəliyev idi. Yusif Məmmədəliyev həmçinin "Molotov Kokteyli"ni kəşf edib və Azərbaycanda neft kimyasının əsasını qoyub.



ADPU 1944-cü ildə "26 Bakı Komissarı adına Mədəniyyət Sarayı"na (indiki Xaqani küçəsi ilə Bülbül prospektinin kəsişməsi) köçürülüb.




II Dünya müharibəsi zamanı ADPU-nun indiki əsas tədris binasının tarixi hissəsi orduya yardım məqsədilə tibb məntəqəsinə çevrilib. Müharibədən sonra binanı burada olan tibbi təchizatı əsas gətirərək Tibb İnstitutuna vermək istəsələr də, direktor Əhməd Seyidovun inadkarlığı sayəsində bina yenidən ADPİ-yə qaytarılıb.

100 İL 100 FAKT

100 İL FAKT



**Azərbaycan Dillər Universiteti**



**Bakı Slavyan Universiteti**

Azərbaycan Dillər Universiteti (o zamanki Xarici Dillər Pedaqoji İnstitutu) və Bakı Slavyan Universiteti (o zamankı Azərbaycan Rus dili və Ədəbiyyatı Pedaqoji İnstitutu) Azərbaycan Dövlət Pedaqoji İnstitutunun bazası əsasında yaradılıb.



Pedaqoji Universitetin nəşriyyat və mətbəəsi 1948-ci ildən fəaliyyət göstərir.



1958-ci ildən ADPİ-də ilk özfəaliyyət dərnəklərinin əsası qoyulmuşdur. Hal-hazırda bu dərnəklər tələbə təşkilatlarının tərkibində fəaliyyət göstərir.


КӘНЧ МУӘЛЛИМ

Кәнчлијин јахын көмәкчиси

СӘМИМИ АРЗУЛАР


"Azərbaycan Dövlət Pedaqoji Universitetinin mətbu orqanı"

GƏNC MÜƏLLİM QƏZETİ

AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

XÜSUSİ BURAXILIŞ

Qəzet 1958-ci il, fevral ayının 1-dən etibarən nəşr olunur.

2021 / № 06 (1109)

ADPU-nun mətbu orqanı olan "Gənc müəllim" qəzeti 1958-ci ildən çap olunur. İlk redaktoru Xəlil Köçərli olub.

100 İL FAKT




1966-cı ildə universitetin əsas tədris binasının tarixi hissəsinin Rəşid Behbudov küçəsindəki yan fasadına böyük rus şairi V.V.Mayakovskinin xatirə lövhəsi vurulmuşdur: "Böyük sovet şairi Vladimir Vladimiroviç Mayakovski burada, Azərbaycan Pedaqoji İnstitutunun böyük zalında dəfələrlə öz şeirlərini oxumuşdur."




Ali təhsil ocağının əsas binasının tarixi hissəsinin Zərifə Əliyeva küçəsindəki fasadına Məmməd Tağı Sidqi və Yanuş Korçakın xatirə lövhəsi vurulmuşdur. Lövhənin mərkəzində Azərbaycan, rus və ingilis dillərində "Əbədilik xeyirxahlığa xidmət etməkdədir" sözləri yazılıb.



***Naxçıvan Dövlət Universiteti***



***Xankəndi Pedaqoji İnstitutu***

Naxçıvan Dövlət Universiteti 1967-ci ildə, Xankəndi Pedaqoji İnstitutu isə 1968-ci ildə ADPİ-nin filialı kimi fəaliyyətə başlamışdır.



26 may 1972-ci ildə ADPİ-nin 50 illik yubileyi münasibətilə institut SSRİ Ali Soveti Rəyasət Heyətinin qərarına əsasən "Qırmızı Əmək Bayrağı Ordeni" ilə təltif edilib. Ordeni ümummili lider Heydər Əliyev 28 fevral 1973-cü ildə keçirilən təntənəli mərasimdə təqdim edib.

100 İL FAKT




23 dekabr 1981-ci ildə ADPİ-nin 60 illik yubileyində instituta Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı verilib. Fərmanı ümummili lider Heydər Əliyev təqdim edib.

1971- 1981-ci illər[1] | 1981-1991-ci illər[2] | 1991-2016-cı illər | 2016-cı ildən

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin indiyədək mövcud olmuş loqoları**

1. Universitetin indiyədək heç bir nəşrdə yer almayan 1971-ci ilə aid ilk loqosu universitetin redaktoru Taleh Mirzəyev tərəfindən 2021-ci ilin aprel ayında Dövlət Kino-Foto Sən ədlə-ri Arxivinin materialları içərisindən aşkar edilmiş, daha sonra araşdırmalar nəticəsində universitetin şöbə müdiri Turan Kərimli və Taleh Mirzəyevin səyləri, ADPU-nun təsərrüfat işçiləri Zabil Mikayılov və Vaqif Allahverdiyevin köməyi ilə 2021-ci ilin sentyabrında loqonun bir neçə fərqli arxiv versiyaları da aşkarlanmışdır. Gördüyünüz loqo 1971-ci ilə aid fotoslaydın neqativlərində, 1973-cü ilə aid yubiley yaxa nişanında və 1973-cü ilin 28 fevral tarixinə aid arxiv fotolarında əks olunan versiyaların emalı yolu ilə uzun zəhmətdən sonra 2021-ci ilin oktyabr ayının əvvəllərində Turan Kərimli tərəfindən restavrasiya olunmuşdur.

2. Loqo fərqli arxiv təsvirləri əsasında 2021-ci ilin sentyabr ayında Turan Kərimli tərəfindən bərpa olunmuşdur.



I Qarabağ müharibəsi zamanı Azərbaycan Dövlət Pedaqoji Universitetinin 29 nəfər məzun və tələbəsi şəhidlik zirvəsinə ucalıb.



**Cəfər Xəndan**



**Mehdi Əliyev**



**Cahangir Ələsgərov**

Cəfər Xəndan, Mehdi Əliyev və Cahangir Ələsgərov müxtəlif vaxtlarda Azərbaycan Dövlət Pedaqoji Universitetinin və Bakı Dövlət Universitetinin rektorları olmuşlar.

100 İL FAKT




ADPU-nun Magistratura və doktorantura şöbəsi 1997-ci ildən fəaliyyət göstərir.



2006-2016-cı illərdə ADPU-da imtahanlar VTS (Virtual Test Sistemi) üsulu ilə keçirilib.




26 noyabr 2015-ci ildə Azərbaycan Müəllimlər İnstitutu ADPU-ya birləşdirilib.



Azərbaycan Respublikası Nazirlər Kabinetinin 03.02.2016-cı il tarixli 30 №-li qərarına əsasən Azərbaycan Dövlət Pedaqoji Kolleci Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdinə verilmişdir. Kollec 1919-cu ildən fəaliyyət göstərir.

100 İL 100 FAKT



2017-ci ilin dekabr ayının 7-də Pedaqoji Universitetdə TÜRKSOY kafedrası fəaliyyətə başlamışdır.

WEB OF SCIENCE

2018-ci ildə "Clarivate Analytics" şirkəti tərəfindən ADPU inkişaf sürətinə görə son 3 ilin "Web of science" elmi bazasının "Ən mütərəqqi Universitet" mükafatına layiq görülüb.

## ADPU Məzunu Olan II Qarabağ Müharibəsi Şəhidləri




Vətən müharibəsi zamanı ADPU-nun 12 məzunu şəhidlik zirvəsinə ucalmışdır. Müharibədə misilsiz qəhrəmanlıq göstərən əsgər və zabitlərimiz sırasında ADPU-nun 183 tələbə və məzunu da var.



Azərbaycan xalqının ümummilli lideri Heydər Əlirza oğlu Əliyev dəfələrlə (1971, 1973, 1977, 1981, 1982) ADPİ-də olmuşdur.

100 İL FAKT



Universitet müxtəlif illərdə "Ali Kişi Pedaqoji İnstitutu", "Azərbaycan Dövlət Ali Pedaqoji İnstitutu", "V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutu", "V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji Universiteti", "N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universiteti" və "Azərbaycan Dövlət Pedaqoji Universiteti" adlanmışdır.



Şəki Filialı



Quba Filialı



Ağcabədi Filialı



Şamaxı Filialı



Cəlilabad Filialı

Pedaqoji Universitetin Şəki, Quba, Ağcabədi, Şamaxı və Cəlilabad rayonlarında filialları mövcuddur.

100 İL FAKT

ADPU-da 8 fakültə, - Tarix və coğrafiya, Kimya və biologiya, Filologiya, Riyaziyyat, Fizika, İbtidai təhsil, İncəsənət və fiziki tərbiyə, Məktəbəqədər təhsil fakültələri, SABAH mərkəzi və 34 kafedra 22 ixtisas üzrə yüksəkixtisaslı kadr hazırlığını həyata keçirir.




Pedaqoji Universitet Bakıdakı 4 tədris binası, 1 kollec, 1 baza məktəbi və regionlardakı 5 filialı ilə ölkəmizdə ən böyük şəbəkəyə malik universitetdir.



Yusif Məmmədəliyev



Zahid Xəlilov



Həsən Abdullayev

Azərbaycan Milli Elmlər Akademiyasının 11 prezidentindən 3-ü ADPU-nun məzunu olmuşdur (Yusif Məmmədəliyev - 2 dəfə, Zahid Xəlilov, Həsən Abdullayev).



Heydər Hüseynov



Səməd Vurğun



İsa Həbibbəyli



Əlisöhbət Sumbatzadə



Zahid Xəlilov

Azərbaycan Milli Elmlər Akademiyasının 5 vitse-prezidenti (Heydər Hüseynov, Səməd Vurğun, İsa Həbibbəyli, Əlisöhbət Sumbatzadə və Zahid Xəlilov) universitetin məzunudur.



Mehdi Mehdizadə



Abbasqulu Abbaszadə



Hüseyn Əhmədov



Sədi İmanov

SSRİ Pedaqoji Elmlər Akademiyasının həqiqi və müxbir üzvləri seçilən azərbaycanlı alimlərin hamısı (Mehdi Mehizadə, Abbasqulu Abbaszadə, Hüseyn Əhmədov və Sədi İmanov) ADPU-nun alimləri olmuşlar.



Məmmədkazım Ələkbərli



Səməd Vurğun



Seyfulla Şamilov



Mehdi Hüseyn



İsmayıl Şıxlı

Azərbaycan Yazıçılar Birliyinin (AYB) 10 sədrindən 5-i Pedaqoji Universitetin məzunu və müəllimi olmuşdur. (Məmmədkazım Ələkbərli, Səməd Vurğun, Seyfulla Şamilov, – 2 dəfə, Mehdi Hüseyn və İsmayıl Şıxlı)



Mirələkbər İbrahimov



Şakir Salahov



Mətləb Quliyev



Fariz Səfərov



Mehdi Hüseynzadə



Xıdır Mustafayev



Səlahəddin Kazımov



Zərbəli Səmədov



Rüstəm Səfərəliyev



Səfa İmanov

Universitetin məzunlarından 3 nəfər (Mirələkbər İbrahimov, Şakir Salahov, Mətləb Quliyev) Azərbaycanın Milli Qəhrəmanı, 4 nəfər (Fariz Səfərov, Mehdi Hüseynzadə, Xıdır Mustafayev, Səlahəddin Kazımov) Sovet İttifaqı Qəhrəmanı, 3 nəfər isə (Zərbəli Səmədov, Rüstəm Səfərəliyev, Səfa İmanov) Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdür.



**Əli Nağıyev**



**Malik Bayramov**




**Orxan Nəbiyev**



**Firdovsi Tahirov**

ADPU məzunlarından general-polkovnik Əli Nağıyev "Zəfər" və "Azərbaycan Bayrağı" ordenləri, baş leytenant Malik Bayramov, leytenant Orxan Nəbiyev və Firdovsi Tahirov isə "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunublar.

# 100 İL FAKT




Respublika ali təhsil müəssisələrində teleqram platformasında süni intellekt robotundan ilk dəfə ADPU-da istifadə olunmuşdur: "ADPUBot". Həmçinin universitetin mətbu orqanı olan "Gənc müəllim" qəzetində multimedia və böyük həcmli informasiyaların verilməsində müasir üsul olan QR koddan istifadə olunur.



100 il ərzində ali təhsil müəssisəsindən 160000-dən çox tələbə məzun olmuşdur.



Psixologiya, pedaqogika və fənlərin tədrisi metodikası elm sahəsi kimi ilk dəfə ADPU-da təşəkkül tapıb.



1944-1950-ci illərdə universitetə rəhbərlik etmiş və ömrünün 40 ilini bu elm və təhsil məbədinə bağlayan professor Əhməd Seyidov ölkəmizdə pedaqogika sahəsində namizədlik və doktorluq müdafiəsi edərək alimlik dərəcəsi almış ilk azərbaycanlıdır.

100 İL FAKT


Aqil Salayev


Ağaməmməd Abdullayev


Məmməd Ələkbərov


Cəfər Hacıyev


Mehdi Mehdizadə


Mehdixan Vəkilov


Şövqi Ağayev


Afad Qurbanov


Nizami Xudiyev

Aqil Salayev, Ağamməd Abdullayev, Məmməd Ələkbərov, Cəfər Hacıyev, Mehdi Mehdizadə, Mehdixan Vəkilov, Şövqi Ağayev, Afad Qurbanov və Nizami Xudiyev həm ADPU-nun məzunu, həm də rektoru olublar.




Pedaqoji Universitetdə bir neçə ildir YUNESKO klub fəaliyyət göstərir. Həmçinin ABŞ-ın Azərbaycandakı səfirliyi ilə ADPU arasında ali təhsil müəssisəsinin Şəki filialında "Amerika Guşəsi"nin yaradılması ilə bağlı memorandum imzalanmışdır. Guşə ingilis dilinin tədrisinə əlavə dəstək verəcək mərkəz rolunu oynayacaq.




ADPU-da təsis edilən yeddi dövri elmi jurnal Ali Attestasiya Komissiyası tərəfindən "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiy ə edilən dövri elmi nəşrlər siyahısı"na daxil edilmişdir.




2021-ci ildə ADPU-da Azərbaycanda ilk dəfə magistrantların elmi-tədqiqat işlərinin nəticələrinin dərc edilməsi məqsədilə “Magistrant” dövri elmi jurnalı təsis edilmişdir.



Hal-hazırda ali təhsil müəssisəsi, onun filialları və kollecində 18000 nəfərdən artıq tələbə təhsil alır.







ADPU-da 10 adlı təqaüd mövcuddur: "Heydər Əliyev", "Abbasqulu ağa Bakıxanov", "Qafur Rəşad Mirzəzadə", "Nizami Gəncəvi", "Üzeyir Hacıbəyli", "Akademik Yusif Məmmədəliyev", "Abdulla Şaiq", "Akademik Zahid Xəlilov", "Akademik Mehdi Mehdizadə" və "Akademik Həsən Abdullayev" adına adlı təqaüdlər.

100 İL 100 FAKT



Universitetdə 67 elmlər doktoru, 62 professor fəaliyyət göstərir.




Ali təhsil müəssisəsi bir əsr ərzində yalnız respublikamız üçün deyil, Gürcüstan, Bolqarıstan və Mərkəzi Asiya respublikaları üçün də yüksəkixtisaslı müəllim hazırlığı prosesini uğurla həyata keçirmişdir.



Hal-hazırda ADPU-da Türkiyə, Rusiya, Suriya, Gürcüstan, Çin, Ukrayna və Türkmənistandan olan əcnəbi tələbələr təhsil alır.

**MÖVLANƏ**

**ERASMUS+**

Pedaqoji Universitet Türkiyənin 11 universiteti ilə "Mövlanə" mübadilə proqramı çərçivəsində əməkdaşlıq edir. Həmçinin "Erasmus+" mübadilə proqramı çərçivəsində tərəfdaş universitetlər arasında tələbə, akademik və inzibati heyətin mübadiləsi həyata keçirilir.

**100 İL 100 FAKT**



Hazırda ADPU-nun 53 xarici ali təhsil müəssisəsi ilə birbaşa əlaqələri mövcuddur.




2020-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universiteti ilə ABŞ-ın Corc Vaşinqton Universiteti arasında "Təhsil idarəetməsi" ixtisası üzrə magistratura səviyyəsində beynəlxalq ikili diplom proqramı üzrə müqavilə bağlanmışdır. Hazırda proqram uğurla icra olunur.




2021-2022-ci tədris ilindən etibarən ADPU-nun magistratura səviyyəsində MBA proqramı üzrə “Tədrisin təşkili və idarə olunması”, SABAH qruplarında “Təlim və tədrisin təşkili və metodikası” və “Gənclərlə iş” ixtisaslaşmaları üzrə mütəxəssis hazırlığına başlanmışdır.

Universitetdə beş tələbə təşkilatı fəaliyyət göstərir: Tələbə Gənclər Təşkilatı, Tələbə Həmkarlar İttifaqı Komitəsi, Təhsil Könüllüləri İctimai Birliyi, Türk Öğrenci Yönetim Konseyi və Tələbə Elmi Cəmiyyəti.

# 100 İL FAKT



Universitetin kitabxana fondunu 755 min nüsxədən çox ədəbiyyat təşkil edir. Kitabxana fondunda orta əsr əlyazmaları olan 1000-ə yaxın nadir kitab nüsxələri mövcuddur. ADPU-nun kitabxana fondu respublika ali təhsil müəssisələri arasında həcminə görə ikinci yerdədir.

ADPU "Avropa Müəllim Hazırlığı Şəbəkəsi", "Universitet Prezidentlərinin Beynəlxalq Assosasiyası", "Avropa Universitetlər Birliyi" və "Kafkasya Universitetlər Birliyi"nə üzvdür.




ADPU ali təhsil müəssisələri arasında ən böyük sosial media şəbəkəsinə malik universitetdir.




Universitetin onlayn televiziyası olan "ADPU TV" 2021-ci ildə fəaliyyətə başlayıb.

100 İL FAKT




ADPU-nun indiki himninin sözləri tanınmış şair
Oqtay Rzaya, musiqisi Elnarə Dadaşovaya məxsusdur. (2012)



Pedaqoji Universitetin ikinci tədris binası (Gənclik kampusu) tərkibindəki 8 mərtəbəli tədris binası, tələbə yataqxanası, yeməkxana, idman zalı, akt zalı və Heydər Əliyev mərkəzi ilə tam təchizatlı kampus şəraitinə malikdir.







Hal-hazırda ADPU-da təhsil alan 1400 nəfərdən çox tələbə qəbul imtahanında 500 və daha yuxarı bal toplayıb.

AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ
1921
100

100 İL 100 FAKT




ADPU-nun 150-ə yaxın tələbəsi Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Gələcəyin müəllimi" təqaüdünü alır.

100 İL 100 FAKT



Son illərdə universitetə qəbul 96%-dən yüksəkdir.




ADPU-da magistratura səviyyəsi üzrə 21, doktorantura səviyyəsi üzrə 37 ixtisaslaşmada yüksəkixtisaslı mütəxəssis hazırlığı həyata keçirilir.




Hazırda Bakı şəhərində yerləşən orta ümumtəhsil məktəblərindən 80-nin direktoru Azərbaycan Dövlət Pedaqoji Universitetinin məzunudur.




ADPU-nun tədris binalarında 29 saylı şəhər poliklinikası tələbə poliklinikası olaraq fəaliyyət göstərir.

100 İL
100 FAKT



ADPU-nun 50 illik, 60 illik, 85 illik, 90 illik və 100 illik yubileyləri dövlət səviyyəsində qeyd edilmişdir.



Cavad Heyət, Otto Ernst Kelm, Abdullah Cəfərəli Caspi, Tunçalp Özgen, Andrei Alexandru Marga və Alev Çakmakoğlu Kuru ADPU-nun fəxri doktorlarıdır.

*Fotoda: Cavad Heyətə fəxri doktorluq verilərkən.*

100 İL 100 FAKT



Yeni tədris planlarına əsasən universitetdə bütün bakalavr ixtisaslarında "İnklüziv təhsil", kimya, fizika, riyaziyyat, texnologiya və informatika ixtisaslarında isə "STEAM" fənni tədris edilir.










ADPU-nun 50, 60 və 100 illik yubiley tədbirlərində istifadə olunan döş nişanları




*"Müəllimlər müəllimi olmaq ikiqat şərəfli və eyni zamanda, ikiqat məsuliyyətli işdir."*

**Ümummilli lider Heydər Əliyev**
**ADPU-nun 60 illik yubileyi zamanı nitqindən**

## QAYNAQLAR

Faktların və fotoların toplanmasında bir neçə fərqli qaynaqlardan istifadə olunub.


1. ADPU-nun arxivi;
2. Azərbaycan Milli Kitabxanasının fondu;
3. Azərbaycan Respublikasının Dövlət Kino-Foto sənədləri Arxivinin Materialları;
4. Azərbaycan Təhsil Tarixi çoxcildliyi;
5. Professor Fərrux Rüstəmovun ADPU-nun tarixi ilə bağlı kitabları;
6. İnternet resurslar

**Redaktor:**
Taleh MİRZƏYEV
**Korrektor:**
Könül NƏZƏROVA, Günay BAĞIRLI
**Dizayn:**
Elvin VAHİDOV, Turan KƏRİMLİ, Nazilə ABDULLAYEVA
**Fotoqraf:**
Nurlan SƏMƏDOV

Universitetlə əlaqə:
AZ1000, Ü.Hacıbəyli 68
Tel.: (+994 12) 493 00 32
Fax.: (+994 12) 598 37 71
E-poçt: office@adpu.edu.az
www.adpu.edu.az
adpu.eduaz
adpu_edu
adputv

| | |
|---|---|
| **Yığılmağa verilmişdir:** | 20.09.2021 |
| **Çapa imzalanmışdır:** | 10.11.2021 |
| **Fiziki çap vərəqi formatı:** | 70x100 1/24 |
| **Fiziki çap vərəqi sayı:** | 4.5 |
| **Tiraj:** | 500 |

**Azərbaycan Dövlət Pedaqoji Universiteti nəşriyyatında çapa hazırlanıb, "İnci Group Companies" QSC mətbəəsində hazır fayldan ofset üsulu ilə çap olunub.**